# İstiqlal tariximizdə Məmməd Əmin Rəsulzadə





**Elşən Mirişli**

*Gəncə şəhəri, tarixçi*

**V Yazı**

***Məmməd Əmin Rəsulzadə Azərbaycan tarixində dönməz, peşəkar inqilabçı, dövlət xadimi, alim, jurnalist, publisist-yazıçı, şair, tarixçi və filosof kimi tanınmışdır.***

***Məmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Yaşıllıq" hərəkatının lideri olmuşdu."Yaşıl qələm" ədəbi cəmiyyətinin üzvləri kimdən ibarətdir? Onların təxmini siyahısını cəmiyyətin 15 mart 1920-ci il tarixli elanından öyrənmək olur.Cəmiyyət həmin elanda bildirirdi: "Yaşıl qələm" dərnəyinin... iclasında qərar qoyulmuşdur ki,bütün Bakıda yaşayan ədib və mühərrirlərin iştirakı ilə ümumi bir iclas olsun.Kəndin məqsəd və məramlarını lazım gələn yerlərə bildirmək üçün müttəhid bir qərarları olsun.Bunun üçün adları aşağıda qeyd edilən möhtərəm ədib və mühərrirlər bazar ertəsi axşam saat yeddidə türk ocağında (Haşımovun mülkündə,müsavat binasında) ümumi iclasa dəvət ediloyorlar.***

**Mühərrir və ədiblər:**

1. Məmməd Əmin Rəsulzadə.2.Maarif naziri Həmid bəy Şaxtalı.3.Nurməhəmməd Şahsuvarov.4.Doktor Həsən bəy Ağayev.5.Şəfi bəy Rüstəmbəyov.6.Əhməd Cövdət Pepinov.7.Ömər Faiq Nemanzadə.8.Hadi Atlasi.9.Hüseyn Sadiq.10.Əhməd Həmdi.11.Üzeyir Hacıbəyli.12.Şəfiqə xanım Əfəndizadə.13.Şəfiqə xanım Qaspirinskaya.14.Səlimə xanım Yaqubova.15.Xəlil İbrahim.16.Qədir Heydərov.17.Məhəmmədbəyli Hüseyn Rza.18.Mirzə Bala Məhəmmədzadə.19.Mirzə Sadıq Axundzadə. 20.Əbdülvahab Məhəmmədzadə. 21.Fərhad Ağayev.22.Bəhri Mürsəlzadə.23.Xudadad Əzizbəyli. 24.Hacı İbrahim Qasımov. 25.Mirzə Məhəmməd Axundzadə.26.Əli Əjdər. 27.Osman Qalteymur.28.Rəhim Vəkilov.29.Məhəmməd ağa Şaxtalı.30.Məhəmmədəli Rəsulzadə. 31.Mustafa bəy Əlibəyov. 32.Mirabbas Mirbağırzadə. 33.Hüseyn Mirzə Camalov. 34.Əhməd bəyAğaoğlu. 35.Əbdürrəhimbəy Haqverdiyev. 36.Nəcəf bəy Vəzirov. 37.Həbib Babazadə. 38.Hacıağa Nuruzadə. 39.Qafur Rəşad.40.Ağa Əli Qasımov. 41.Mahmudbəy Mahmudbəyov. 42.Əhməd Bədii. 43.Əli Rza.44.Rza Zaki 45.Rza Təhmasib.46.Mircəfər Mircavadov.

**Şairlər:**

1.Salman Mümtaz.2.Hüseyn Cavid.3.Abdulla Şaiq.4.Mirzə Əbdülxalıq Yusif.5.Mirzə Əbdülxalıq Cənnəti.6.Cavad Axundzadə.7.Əliabbas Müznib.8.Feyzulla Sacid.9.Doktor Rəşid Sərpa.10.İsa bəy Aşurbəyli Həqqi.11.Seyid Zərgər.12.Cəfər Cabbarzadə.13.Əli Şövqi.14.Mirhəsən Münsif.15.Əlipaşa Hüseynzadə.16.Miridvaldin.17.Ağadadaş Müniri.18.Mirzə Əbdülxaliq Ziya. 19.Məşədi Azər. 20.Əli Məhzun.21.Niyazi.22.Əbdürrəhman Dai.23.Rican .24.Mürşid.25.Əli Razi.26.Mehdi bəy Hüsni.27.Səməd Mənsur.28.Abdulla bəy Əfəndizadə Zövqi.29.Nemət Bəsir.30.İbrahim Tahir Musazadə.31.Yusif Kənan.32.Bəhram bəy Fədai.33.Mirzə İbrahim Fəna.34.Haşım bəy Saqib və sair mühərrir və şairlər.

Adı çəkilən yazıçı,şair,dramaturq və publisistlər Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsrin əvvəllərində başlanmış "Yaşıllıq" hərəkatının varisləri kimi meydana çıxdılar.Həmin müəlliflər ədəbi-mədəni inkişafla sosial-iqtisadi tərəqqinin sıx vəhdətdə olduğunu geniş xalq kütlələrinə izaha çalışır,dövrün ictimai-fəlsəfi xarakterini müəyyənləşdirməkdə mütərəqqi rol oynayırdılar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli istiqlal əldə edən gənclər əsrin əvvəllərindən yeni keyfiyyətlə təkamülə başlamış milli ədəbiyyat yaradıcılığını və onun sabitləşən ənənələrini yeni zirvəyə istiqamətləndirməyi mühüm vəzifə sayırdılar.Elə bu məqsədlə də Məmməd Əmin Rəsulzadə daxil olmaqla onlar 1919-cu il avqustun 26-da Xalq Cümhuriyyəti parlamentinin binasına toplaşaraq yeni "Yaşıl qələm" dərnəyinin yaradıldığını rəsmən elan etdilər.Dərnəyin birinci iclası və qəbul edilən məramnaməsi haqqında "Azərbaycan" qəzetində avqustun 29-da yazırdı:

"Seşənbə günü avqustun 26-da parlament binasının qiraətxanası salonunda ədib mühərrirlərin iştirakı ilə təşkil edilməsi təsvir edilən ədəbi,elmi "Yaşıl qələm" cəmiyyətinin birinci müəssislər iclası vaqe oldu.İclasda 35 nəfərədək ədib və mühərrir iştirak edirdi.

**Məmməd Əmin Rəsulzadənin partiya lideri kimi fəaliyyəti**

Müsavat Partiyası 1911-ci ildə yaradılmışdır.1911-ci ildə əsası qoyulan bu partiya 1917-ci il Fevral inqilabına qədər gizli olaraq fəaliyyət göstərmişdir.

**Müsavat Partiyasının I Qurultayı**

***1917-ci il iyulun 17-də müsavatçılar,Difai Partiyası Gəncə Milli Komitəsinin aparıcı şəxsləri Məmməd Əmin Rəsulzadənin, Nəsib bəy Yusifbəylinin,Həsən bəy Ağayevin,Şəfi bəy Rüstəmbəylinin,Xasməmmədli və Şeyxzamanlı qardaşlarının yaratdıqları Türk Ədəmi-Mərkəziyyət Firqəsi ilə birləşərək 'Türk Ədəmi –mərkəziyyət Firqəsi Müsavat'ın əsasını qoymuşlar.Partiyanın sədri növbəti dəfə Məmməd Əmin Rəsulzadə seçilmişdir.Birləşmiş partiyanın qərargahı 1918-ci il Bakıda baş verən qanlı mart hadisələrinədək bu şəhərdə yerləşmişdir.***

***Müsavatın ilk qurultayı 1917-ci il oktyabrın 26-31-də Bakıda 'İsmailiyyə" binasında keçirilib.***

***125 deputatlıq Zaqafqaziya Seymində Məmməd Əmin Rəsulzadənin başçılıq etdiyi Müsavat partiyası (30 nəfər sayla) bir neçə azsaylı partiya ilə birgə Azərbaycanın istiqlalını elan etdi.44 nəfərlik Milli Şuranın sədri vəzifəsinə Məmməd Əmin Rəsulzadə seçildi.***

**Müsavat Partiyasının II Qurultayı**

1919-cu ildə partiyanın ikinci qurultayı keçirilib.Müsavat Partiyasının II qurultayı 1919-cu ilin dekabrında keçirildi (qurultay dekabrın 2-dən 12-dək davam etmişdir).Azərbaycan Cümhuriyyətinin bütün bölgələrindən qurultayda 140 nümayəndə təmsil olunurdu.Qurultayı giriş sözü ilə Məmməd Əmin Rəsulzadə açıb və partiyanın Mərkəzi Komitəsinin fəaliyyəti haqqında məruzə ilə çıxış edib.

Qurultayın Siyasi Komissiyasına Məmməd Yusif Cəfərov,Musa bəy Rəfiyev,Məhəmmədhəsən Hacınski,Nəsib bəy Yusifbəyli,Xəlil bəy Xasməmmədov və Məmməd Əmin Rəsulzadə seçilmişdir.Mandat Komissiyasına isə Cavad bəy Məlik-Yeqanov,Məmməd Əmin Rəsulzadə və Əbdülvahab Məmmədzadə seçilmişdir.Qurultayın birinci iclası gecə saat 10-dək davam etmiş,ikinci gün isə qurultaya Şəfi bəy Rüstəmbəyli sədrlik etmişdir.İkinci qurultayda Məmməd Əmin Rəsulzadə yenidən Müsavat Partiyasının sədri seçilib.

II Qurultayda müvafiq qərarlar qəbul edilib:

1.Qafqaz konfederasiyası;

2.Denikin təhlükəsi;

3.Dağıstan məsələsi.

Qurultayda Partiya Proqramına baxılıb 67 maddəlik Partiya Proqramı iki hissədən ibarət idi:Birinci hissə-Nəzəriyyə və uzaq məqsəd;ikinci hissə-Əməliyyə və yaxın məqsəd.

Proqramın birinci hissəsində göstərilirdi ki,əsas amalımız olan Azərbaycan istiqlalını bütün namus və vicdanımızla qorumalıyıq.

Proqramın ikinci hissəsi Şəkli idarə; Həqqi-əhliyyət; İqtisad və maliyyə işləri; İşçi məsələsi;Ruhani idarəsi məsələsi; Maarif bölməsi. bölümlərindən ibarət idi.

**Gizli Müsavat (1920-1926)**

XI Qızıl Ordu Azərbaycanı işğal edən kimi,partiyanın rəhbərləri ölkəni işğaldan qurtara bilmədiyinə görə şiddətlə tənqid edildi.29 aprel 1920-ci il tarixində Müsavat Partiyasının fövqəladə konqresi keçirildi.Orada Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi və işğalçıların ölkədən çıxarılması uğrunda mübarizəyə başlamaq qərarına gəlindi.

**Birinci gizli təşkilat**

İşğala qarşı gizli müqavimət təşkil edilməsi üzrə iş 1920-1922-ci illər ərzində aparılırdı.Fəaliyyət iki istiqamət üzrə aparılırdı: Azərbaycanın dövlət müstəqilliyinin bərpasının təbliği və işğalçılara qarşı silahlı üsyanın təşkili.

1922-ci ildən başlayaraq ,gizli təşkilat "İstiqlal" adlı qəzet yayımlamağa başlamışdır.Onun cəmi 18 nömrəsi işıq üzü görmüş,hər sayı 30-50 nüsxədən ibarət idi.Bundan başqa,gizli mətbəədə partiyanın proqramı və müxtəlif vərəqələr dərc edilib yayılırdı.

**Strukturu**

1.Mirzəbala Məmmədzadənin sədrlik etdiyi Mərkəzi Komitə (MK);

2.Əbdül Vəhab Məmmədzadənin sədrlik etdiyi Bakı Komitəsi (BK);

3.Hərbi təşkilat;

Bakıda üçlüklər tərəfindən idarə edilən dörd rayon təşkilatı olmuşdur.Bundan başqa Səlyanda və Lənkəranda da yerli təşkilatlar fəaliyyət göstərirdilər.

**Hərbi təşkilat**

***Müsavatçılar silahlı üsyan yolu ilə işğala son qoymaq məqsədi ilə MK nəzdində hərbi təşkilat yaratmışdılar.Ona 1923-cü ilə qədər Dadaş Həsənov (Həsənzadə) rəhbərlik etmişdir.Dadaş Həsənov gizli fəaliyyət göstərən 'Müsavat"partiyasının Bakı Komitəsinin (BK) nəzdində fəaliyyət göstərən Hərbi təşkilatın rəisi (1921-1923),Gizli 'Müsavat" Mərkəzi Komitəsinin (MK) sədri (1923-1926) olmuşdu.Dadaş Həsənovun rəhbərlik etdiyi həmin dövr ərzində Azərbaycanda sovet rejiminə qarşı 50-dən çox üsyan və Sovet obyektlərinə qarşı təxribatlar qeydə alınmışdı.Bundan sonra təşkilatı Məmməd Sadıq Quliyev,Əhməd Hacınski,İbrahim Axundzadə,Əli Hüseyn Dadaşov və İsfəndiyar Vəkilov idarə edirdilər.Hərbi təşkilat 1922-ci ildə SSRİ tərkibinə qatılmağın əleyhinə Azərbaycanı bürümüş üsyanları təşkil etmişdir.Gizli fəaliyyət göstərən Müsavat partiyası Mərkəzi Komitəsi 1922-ci ildə Məmməd Əmin Rəsulzadənin xaricə qaçırılması haqqında qərar qəbul etdi.Bu məxfi əməliyyatı Müsavat Partiyası MK qərarı ilə 1922-ci ildə Dadaş Həsənov,Rəhim Vəkilov və tanınmış tatar maarifçisi Musa Bigiyev həyata keçirə bilmişdilər.***

**Mühacirət dövrü**

Azərbaycanın işğalından sonra xaricə güclü mühacir axını başladı.

Yalnız Müsavatın görkəmli nümayəndələrinin,xüsusilə Məmməd Əmin Rəsulzadənin xaricə mühacirətindən sonra müxtəlif ölkələrə səpələnmiş Azərbaycan mühacirlərini bir təşkilat ətrafına toplamaq mümkün oldu.Məmməd Əmin Rəsulzadə 1922-ci ildəTürkiyəyə gələrək,ilk növbədə,Müsavat Partiyasının Xarici Bürosunu təşkil etdi.Müsavat Partiyasının Xarici bürosu ilk vaxtlar öz komitələrini partiya üzvlərinin daha çox məskunlaşdığı Türkiyə və Qacar Dövlətində (İranda) yaratdı.Bu komitələr geniş fəaliyyətə başladılar.

İstanbulda fəaliyyət göstərən Xarici Büronun sədri Məmməd Əmin Rəsulzadə,katibi Mirzə Bala Məmmədzadə,xəzinədarı Xəlil bəy Xasməmmədov idi.Onlar Xarici Büronun Rəyasət Heyətini təşkil edirdi.Büro üzvləri Şəfi bəy Rüstəmbəyli və Mustafa Vəkilov Rəyasət Heyətinin üzvləri ilə birlikdə onun icraiyyə orqanına daxil idilər ki,bunları da "bəşlik" adlandırırdılar.Məmmədsadıq Axundzadə və Abbasqulu Kazımzadə Büronun üzvləri idilər.Bu dövrdə partiyanın İranda Cəfər Cəfərov (sədr),Məmməd Əmin Rəsulzadə və Qulam Şərifovdan ibarət Tehran (Rəşt və Ənzəli təşkilatları da bu komitəyə tabe idilər),Teymur bəy Məlikaslanovun sədrliyi ilə Təbriz komitələri (Ərdəbil və Astara təşkilatları bu komitəyə tabe idilər) fəaliyyət göstərirdi.

Müsavat Partiyası Gürcüstan və Şimali Qafqaz milli təşkilatları ilə ittifaqa girmiş,ilk əvvəl Qafqaz İstiqlal Komitəsi təşkil etmiş,sonra isə istiqlalın bərpa ediləcəyi təqdirdə Qafqaz işlərini idarə edəcək Qafqaz Konfederasiya Şurasını yaratmağa nail olmuşdu.Məmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə Müsavat Partiyasının xaricdə fəaliyyətinin genişləndirilməsi Sovet hakimiyyəti dairələrində böyük narahatlıq doğururdu.1925-ci ildə Sovet İttifaqının xarici işlər komissarı Georgi Vasilyeviç Çiçerin Bakıda keçirilən IV Sovetlər qurultayındakı çıxışında demişdi:

Son zamanlar müsavatçıların Türkiyədə fəaliyyətlərinin gücləndiyini qeyd etməmək olmaz-Biz dəfələrlə Türkiyə hökumətinə müraciət edərək,Sovet hökuməti əleyhinə intriqalara etirazımızı bildirmişik və buna,nəhayət son qoyulmasını tələb etmişik.

Sovet İttifaqının tələbi ilə Türkiyədə müsavatçıların fəaliyyəti xeyli dərəcədə məhdudlaşırdı.1931-ci ildə müsavatçılar Türkiyəni tərk etməyə məcbur oldular.Polşa hökuməti Azərbaycan mühacirlərini qəbul etdi.1930-cu ildə Polşa Silahlı Qüvvələrinin Baş Qərargahının "Prometey" təşkilatının fəaliyyəti ilə bağlı Türkiyədən Polşaya gələn Müsavat Partiyasının lideri Məmməd Əmin Rəsulzadə himayəyə alındı.O dövrdə 1918-ci ildən 1935-ci ilə qədər de –fakto Polşa dövlətinin başçısı olan Jozef Pilsudski ilə Məmməd Əmin Rəsulzadə arasında məktublaşmalar olub.Bu məktubların əsasını Azərbaycanın rus işğalından azad edilməsi məsələsi təşkil edirdi.Rəsulzadənin Polşa dövləti ilə ilk məktublaşmaları 1923-cü ilə təsadüf edir.Rəsulzadənin bu məktublardan birincisinin 1923- cü il 31 mart tarixli məktubun əsas hissəsini öz vətənlərindən qovulmuş Azərbaycan əsgərlərinin müqavilə əsasında Polşa ordusunda xidmət keçməsi xahişi təşkil edirdi.Pilsudski cavabında bildirirdi ki,Azərbaycan əsgərlərinin Polşa ordusunda hərbi xidmət keçməyini qəbul etməyə hazırdılar.Rəsulzadənin Türkiyədə olarkən dərc olunan "Yeni Qafqaz","Azəri türk"," Odlu Yurd " dərgilərinin maddi baxımdan yardımını da Polşa hökuməti öz üzərinə götürmüşdü.Bunun nəticəsi idi ki,adı sadalanan dərgilər davamlı olaraq nəşr olunurdu.

Bundan əlavə,1936-cı ildə Rəsulzadə Müsavat Partiyasının böyük konfransını Polşanın paytaxtı Varşavada keçirdi və Polşa hökuməti bu konfransa öz köməkliyini əsirgəməmiş,böyük dəstək vermişdi.

İrandakı müsavatçılar içərisində fars və türk təmayülləri arasında mübarizə gedirdi.Fars meyilli qüvvələrə parlamentin sabiq üzvü molla Mirzə Səlim Axundzadə başçılıq edirdi.Böyük Britaniya və SSRİ-nin dəstəyi və hərbi yardımı ilə Qacar Dövlətini devirərək qurulmuş Palani İranı hökuməti nümayəndələri fars meyilli qüvvələrin təsir dairəsini genişləndirmək məqsədi ilə onlara maddi yardım göstərirdilər.Türk təmayüllü qüvvələrə isə Məmmədsadıq Quliyev rəhbərlik edirdi.Mirzə Bala Məmmədzadə İstanbula getdikdən sonra Məmmədsadıq Quliyev Xarici Büronun Güney Azərbaycandakı nümayəndəsi təsdiq olunmuşdu.

***Kommunizm nə yapırsa yapsın,Rusiya imperializmi hansı rəngə girirsə girsin meydana bir həqiqət var: millətlər kəndilərini tanımışlar.***

***Üsyan və qanla sərkarə gələn bir qüvvət üsyan və qanla da gedəcək.Bu gün bir üsyan yapan müntəzəm bir qüvvət yoxsa da yarın o qüvvət kommmunizmin kəndi vicudə gətirdiyi təşkilat hüceyrəsindən olsa da, doğulacaqdır.***

***Kommunizm rejimi süqut etmək məcburiyyətindədir.***

**Son**